# Əbədiyaşarlıq rəmzi

**Azərbaycan Şərqin və Qərbin qovuşduğu unikal coğrafi məkanda yerləşən, müxtəlif mədəniyyətlərin bir araya gəldiyi nadir ölkələrdəndir. Özünəməxsus milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya xalqları arasında özünəməxsus yer tutur. Vaxtilə Şərqdə ilk cümhuriyyəti quran, qadınlara seçki hüququ verən xalqımızın öz milli-mənəvi dəyərlərini yüksək səviyyədə qoruya bilməsi və inkişaf etdirməsi ölkədə multikultural və tolerant cəmiyyətin formalaşmasını təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir” fikirləri Azərbaycanın tolerant ölkə imicinin yüksək səviyyədə qorunmasının əsas qayəsini təşkil edir. Bu gün Azərbaycanda dilindən, dinindən asılı olmayaraq bütün vətəndaşlar eyni hüquqlara malikdir və bu hüquqlar ölkə qanunvericiliyi ilə qorunur.**



Həm qədimlərdə, həm də müasir dövrdə Azərbaycan öz yüksək tolerantlığı ilə seçilən bir bölgə kimi tarixdə öz yerini tutub. Bura zərdüştiliyin vətəni, Qafqazda xristianlığın ilk beşiyi, İslam dininin geniş yayıldığı məkan, müxtəlif etnosların sülh şəraitində yaşadığı ərazi, rəngarəng mədəniyyətlərin bir-birindən bəhrələnərək çiçəkləndiyi diyardır.

Ümumiyyətlə, Azərbaycan tarixən etnoqrafik rəngarəngliyi ilə seçilən ölkə olmuşdur və bu gün də belədir. Etnik azərbaycanlılarla bərabər ruslar, gürcülər, talışlar, ukraynalılar, tatlar, udilər, yəhudilər, ləzgilər, avarlar, kürdlər, ingiloylar, saxurlar, xınalıqlılar, buduqlular, qrızlar kimi etnik qruplar birgə yaşayırlar. Qeyd olunan etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlayır. Bu mədəniyyətlərin müxtəlif elementləri məişət həyatında, sənətkarlıqda, kulinariyada və müxtəlif mərasimlərdə öz əksini tapır və qorunub saxlanır.

Məqsədi ölkə əhalisi arasında ayrı-seçkilik qoyulmadan hər bir kəsin vicdan və dini etiqad azadlığının həyata keçirilməsini real təmin etməkdən ibarət olan bu siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. O, hələ 1993-cü ildə ölkə Prezidenti kimi andiçmə mərasimində deyirdi: “Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır”.

Ulu öndərin proqram xarakterli bu çıxışında göstərilən məqsədə çatmaqdan ötrü Azərbaycan dövləti bu gün Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün bütün imkanlarını səfərbər etmişdir.

Ölkəmizdə dini sahədə yaranmış dayanıqlı sabit vəziyyət həm xalqımızın tolerant ruhu və İslam dininin bəşəri ideallara hörməti, həm də son iyirmi il ərzində həyata keçirilən düşünülmüş uğurlu siyasətin nəticəsidir.

Qeyd etmək lazımdır ki, dini ayrı-seçkilik beynəlxalq hüquq normaları tərəfindən insan hüquq və azadlıqlarının kobud pozuntusu kimi qiymətləndirilir və həmin normalara görə, bütün dövlətlər bu cür hallara qarşı ciddi mübarizə aparmağa borcludurlar. BMT Baş Məclisinin 1981-ci il tarixli qətnaməsi ilə təsdiq edilmiş “Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Bəyannamə”si “dinə, yaxud əqidəyə əsaslanan və məqsədi, yaxud nəticəsi bərabərlik əsasında insan hüquqlarının və əsas azadlıqların tanınmasını, onlardan istifadə olunmasını, yaxud onların həyata keçirilməsini ləğv etmək, yaxud alçaltmaq olan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət, yaxud üstüntutma”nı “dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkilik” hesab edir.

Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Azərbaycan Respublikasının konstitusiya layihəsini hazırlayarkən bu reallığı və ölkəmizin çoxkonfessiyalılıq xüsusiyyətini dəqiq qiymətləndirmiş və Əsas Qanunumuza bununla bağlı normaların daxil edilməsini təmin etmişdir. Belə ki, müstəqil dövlətimizin ilk Konstitusiyasına vicdan və dini etiqad azadlığı ilə bağlı beynəlxalq hüququn əsas prinsipləri ilə yanaşı, Azərbaycan dövlətinin “dünyəviliyi” və bunun tərkib hissəsi olan “bütün dini etiqadların qanun qarşısında bərabərliyi” müddəaları da daxil edilmişdir. Bu prinsiplər ölkəmizin Əsas Qanununun göstərişlərinin konkretləşdirilməsi məqsədilə qəbul olunmuş bütün qanunvericilik aktlarında gözlənilmiş və dövlət orqanları öz fəaliyyətlərində daim ona istinad edirlər.

Azərbaycan Respublikasının qanunvericiliyi dinlərin və dini qurumların bərabərliyini təsbit etməklə kifayətlənmir. O, bu prinsipi bütün fiziki şəxslərə də tətbiq edir. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 1-ci hissəsinə görə, hər kəs dini mənsubiyyətindən asılı olmayaraq qanun və məhkəmə qarşısında bərabərdir. Bu tələb ölkə Konstitusiyasının 25-ci maddəsində əksini tapmış hamının qanun və məhkəmə qarşısında bərabərliyi, bir sıra digər amillər kimi, həm də dinindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə dövlətin təminat verməsi, habelə insan və vətəndaş hüquqlarının dini əqidəyə görə məhdudlaşdırılmasının qadağan edilməsi prinsipindən irəli gəlir. Konstitusiyanın həmin maddəsinin IV hissəsinin mənasına görə, heç kəsə dini mənsubiyyətinə görə zərər vurula, güzəştlər və ya imtiyazlar verilə, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

Dinlərin qanun qarşısında hüquqi bərabərliyi dövlətin bütün dinlərə və dini qurumlara bərabər yanaşması, onların hamısı üçün eyni qanunvericilik aktlarının mövcud olması, onların hüquqi statuslarının eyniliyi deməkdir. Bu, konstitusion-hüquqi prinsip kimi özünü ilk növbədə onda göstərir ki, ölkəmizdə heç bir dinə dövlət dini statusu verilməmişdir. Başqa sözlə desək, ölkəmizdə heç bir dinin digərləri ilə müqayisədə fərqli rəsmi statusu müəyyən edilməmişdir. Bütün dini qurumların və dinlərin hüquq və vəzifələrinin bərabərliyi təmin edilmişdir.

Bu gün Azərbaycan həm Şərq dəyərlərinin, həm də Qərb düşüncə tərzinin mütərəqqi tərəflərini özündə birləşdirən ölkədir. Ötən il ölkəmizdə keçirilən ilk Avropa Oyunları zamanı bütün dünya bir daha bunun şahidi oldu. Avropa Oyunlarına tamaşa etmək üçün yaxın və uzaq xarici ölkələrdən Bakıya dinindən və irqindən asılı olmayaraq minlərlə insan gəldi. Avropa Oyunlarının iştirakçısı olmuş 6 min idmançı, 2 minə yaxın jurnalist yarışların keçirildiyi müddətdə Azərbaycandakı reallıqlarla, buradakı tolerant mühitlə yaxından tanış oldular, müxtəlif sivilizasiyalara, mədəniyyətlərə mənsub insanların dinc yanaşı yaşamasının şahidi oldular. Həmin insanlar vətənlərinə qayıdandan sonra Azərbaycanda gördükləri barədə məqalələr yazdılar, ölkəmiz barədə xoş təəssüratlarını bölüşdülər, Azərbaycanın tolerantlıq təcrübəsi və multikulturalizm mühiti digər ölkələrə nümunə göstərildi.

Son illərdə ölkəmizdə multikulturalizmin inkişafı sahəsində görülən işlər onu deməyə əsas verir ki, bu gün Prezident İlham Əliyev ümummilli liderin zəngin dövlətçilik ənənələrini yüksək səviyyədə davam etdirir. Son illər ölkəmizdə aparılan abadlıq, tikinti-quruculuq işlərinin sırasında yeni məscidlərin, ziyarətgahların, xristian və iudaizm məbədlərinin tikintisi və bərpası Azərbaycanda hökm sürən tolerantlığın bariz nümunəsidir. Azərbaycan elə bir ölkədir ki, burada məscid, sinaqoq, pravoslav, katolik, baptist kilsələri, İslam dininin müxtəlif təriqətlərinə aid məbədlər fəaliyyət göstərir. Bakıda pravoslav kilsəsinin bərpa edilməsi, katolik kilsəsinin tikilməsi, Vatikanın Apostolunun fəaliyyətə başlaması, vaxtilə ləğv edilmiş Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı bölgə Yeparxiyasının fəaliyyətinin bərpa edilməsi Azərbaycandakı dini tolerantlığın nümunələridir. Hələ 2002-ci ildə Roma Papası II İoann Pavel ölkəmizə tarixi səfəri zamanı Azərbaycandakı dini dözümlülük ənənələrini xüsusi qeyd etmişdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan xalqının multikultural dəyərlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən siyasəti indiki mərhələdə uğurla davam etdirən Prezident İlham Əliyev mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir.

Azərbaycanın sivilizasiyalar və mədəniyyətlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsindən irəli gələrək son illər ölkəmizdə siavilizasiyalararası dialoq və tolerantlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlər keçirilir ki, bu da ölkəmizin artıq bu sahədə bir mərkəzə çevrildiyindən xəbər verir. Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədilə ölkəmizdə 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Bu forum göstərir ki, mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə inkişafı yönündə Prezident İlham Əliyevin təşəbbüskarlığı dünyanın diqqət mərkəzindədir. Çünki “Bakı prosesi” adı ilə məşhur olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşəbbüskarı şəxsən Prezident İlham Əliyevdir. Əsası 2008-ci ilin dekabrında Bakıda keçirilmiş Avropa Şurasının mədəniyyət nazirlərinin iclasında qoyulmuş bu forum ötən illər ərzində dünya birliyini narahat edən ən mühüm məsələlərə dair fikir mübadiləsi aparmaq üçün hamı tərəfindən qəbul edilən platformaya çevrilib. Ona görə də “Bakı prosesi” artıq dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən qəbul olunur və dəstəklənir.

2015-ci ilin may ayında keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: “Əsrlər boyu mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik”.

Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində multikulturalizm dövlət siyasətinin ən önəmli istiqamətlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, Prezidentin sərəncamı ilə 2014-cü il fevral ayının 28-də Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirliyi təsis edilmişdir. Həmin ilin may ayında isə Prezident İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Əsas məqsədi tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək olan bu mərkəzin fəaliyyət istiqamətləri Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək, etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək, təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması üçün layihələr gerçəkləşdirməkdən ibarətdir.

Azərbaycanın dünyada tolerantlıq, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilməsində, xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin dünyaya təqdim olunmasında Azərbaycan dövləti ilə yanaşı, mərhəmət və humanizm mücəssəməsi olan Heydər Əliyev Fondunun da böyük rolu var. Fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti həqiqətən də heyrətamizdir. Fond öz fəaliyyəti ilə dünya xalqları arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olunmasına, Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanmasına və təbliğinə dəyərli töhfələr verir.

Fondun həyata keçirdiyi “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində indiyədək ölkəmizdəki bir çox məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb, onların fəaliyyəti üçün münbit şərait yaradılıb.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu gün ölkəmizdə multikulturalizm ideyası müstəvisində aparılan müzakirələr, Bakıda təşkil edilən humanitar forumlar, beynəlxalq konfranslar ölkəmizi sivilizasiyaları birləşdirən məkana çevirmişdir.

Cari ilin yanvar ayının 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı giriş nitqində Prezident İlham Əliyev dünyada baş verən proseslərdən, xüsusilə siyasi, hərbi və humanitar böhranlardan narahatlığını bildirmiş, bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıqları qeyd edərək həm Avropa ölkələri ilə sıx bağlı olan, həm də müsəlman aləminin ayrılmaz hissəsi olan Azərbaycanın dinlərarası, sivilizasiyalararası dialoqun güclənməsi naminə bundan sonra da çalışacağını bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti yekun nitqi zamanı bu problemə bir daha toxunaraq müasir zamanda sivilizasiyalararası dialoqun az müşahidə olunduğunu təəssüflə bildirməklə yanaşı, Azərbaycanın bu yoldan dönməyəcəyini bəyan edərək 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etdi.

Ölkə rəhbərinin ötən ilin yekunları haqqında fikirlərində multikultural dəyərləri ilə daim seçilən Azərbaycanın nümunəsinin regional və daha geniş müstəvidə öyrənilməsinin vacibliyini vurğulaması və 2016-cı ili “Multikulturalizm ili” elan etməsi ilə 2015-ci ili ağır humanitar, iqtisadi və hərbi-siyasi böhranlarla başa vurmuş geniş Avrasiya regionunda problemlərin həllinin əsas təməllərindən birinin tolerant yanaşma olduğu mesajını çatdırdı.

Ölkəmizdə multikulturalizmin inkişafından danışarkən Azərbaycanda bu sahədə keçirilən beynəlxalq tədbirləri xüsusi qeyd etmək lazımdır. Bu baxımdan bu il Bakıda keçiriləcək Sivilizasiyalar Alyansının Qlobal Forumu dünya miqyasında çox böyük beynəlxalq tədbir olmaqla yanaşı, Azərbaycanda görülən işlərə BMT tərəfindən verilən qiymətdir. BMT-nin fəal iştirakı və dəstəyi ilə keçiriləcək bu tədbir mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, Bakıda ənənəvi humanitar forumlar keçirilir. Bundan əvvəl Mədəniyyətlərarası Dialoq forumları keçirilmişdir. Lakin Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi ölkəmizə böyük dəyər verilməsinin bariz nümunəsidir. Çünki Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni əsirgəmir.

Cari ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə “Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016” adlı Beynəlxalq Multikulturalizm qış məktəbi layihəsinin həyata keçirilməsi də ideoloji baxımdan mühüm əhəmiyyətə malikdir. “Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin, nüfuzlu elm adamlarının iştirak etdikləri beynəlxalq multikulturalizm yay və qış məktəbləri təkcə Bakıda deyil, həmçinin bir sıra rayonlarda multikulturalizmin təbliğində mühüm vasitədir.

Artıq 2015-ci ilin əvvəlindən etibarən “Azərbaycan multikulturalizmi” fənninin xarici ölkələrin ali təhsil ocaqlarında tədrisinə başlanılıb. Azərbaycan multikulturalizmi fənni Rusiya, Almaniya, Litva, Belarus, İndoneziya, Bolqarıstan, İtaliya, Çexiya, Gürcüstan və digər ölkələrin universitetlərində tədris edilir.

Bundan başqa, Prezident İlham Əliyevin *“Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq”* fikrini özünə deviz seçən yay və qış məktəbləri artıq ölkəmizdə ənənəyə çevrilməkdədir. Xarici ölkə universitetlərində təhsil alan tələbələrin, mütəxəssislərin “Azərbaycan multikulturalizmi” fənni ilə tanış olduqdan sonra Azərbaycana gəlmələri, fənn vasitəsilə öyrəndiklərini əyani şəkildə öz gözləri ilə görmələri, həmyaşıdları ilə ünsiyyət qurmaları, bu ünsiyyəti sonradan davam etdirmələri çox vacibdir. Bu məktəblərin təşkili sayəsində gələcəkdə xarici tələbələr elmi fəaliyyətlərində Azərbaycan təcrübəsinə istinad edə biləcək və öz fəaliyyətini Azərbaycanla bağlayan hər bir xarici tələbə öz ölkəsində vətənimizin təmsilçisinə çevriləcəkdir. Bu isə Azərbaycanı sevən və hər zaman onu müdafiəyə hazır olan əcnəbi dostlarımızın dairəsinin genişlənməsi deməkdir.

Bu baxımdan Azərbaycanın multikulturalizm ənənələrinin öyrənilməsinin nəyi vəd etdiyinin tədqiqi və daha geniş müstəvidə təqdim olunması böyük əhəmiyyət kəsb edir və bu işin davamlı şəkildə aparılması çox mühümdür. Tarixin bütün dönəmlərində olduğu kimi, bu gün də zamanın tələbləri öz həllini gözləməkdədir və müasir dövrün çağırışları dinc birgəyaşayışın təmin olunması istiqamətində davamlı və dayanıqlı tədbirlərin görülməsini vacib edir.

Beynəlxalq münasibətlər sisteminin qlobal xarakter aldığı müasir dövrdə ölkələrin və xalqların təcrid olunmuş halda yaşaması mümkün deyildir və ötən ildə istər iqtisadi, istər maliyyə, istərsə də digər problemlərin sərhədləri aşaraq bu və ya digər formada əksər ölkələrə sirayət etdiyi göz qabağındadır. Belə bir şəraitdə müxtəlif mədəniyyətlər arasında harmoniyanın təmin edilməsi bir çox problemlərin həllində müstəsna rol oynayacaqdır.

Multikultural cəmiyyətlərin formalaşması üçün tarixi və coğrafi faktorlarla yanaşı, vacib olan meyarlardan ən əsası isə məhz tolerantlıqdır. Tolerantlıq Azərbaycan multikulturalizminin əsas sütunudur.

Müxtəlif mədəniyyətlərə, dinlərə və dini konfessiyalara tolerant yanaşılmanın vacib nümunəsi olan Azərbaycanda bütün mədəniyyətlərin dəyərlərinə vahid kompleks şəklində yanaşılır və məhz qarşılıqlı hörmətə böyük önəm verilir. Başqa sözlə, Azərbaycanın multikulturalizm nümunəsi hər bir vətəndaşın inkişafını və rifahını əsas tutaraq daha geniş anlamda regional sülh və inkişafı özündə ehtiva edir.

Beləliklə, 2016-cı ili “Multikulturalizm ili” elan etməklə Prezident İlham Əliyev yerli və beynəlxalq ictimaiyyətə mühüm mesajlar çatdırmaqla yanaşı, qarşıya çox vacib tələblər qoymuşdur. Bu tələblər Azərbaycanda multikultural dəyərlərin daha da inkişafının davam etdirilməsindən, ölkəmizin multikultural dəyərlərinin daha dərindən öyrənilməsi və təbliğindən ibarətdir.

Göründüyü kimi, Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin bir ölkə kimi deyil, həm də bəşəriyyətin humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınmaqdadır. Azərbaycanda bu sahədə formalaşan münasibətlər göstərir ki, tolerantlıq və multikulturalizm hər bir dövlətin və xalqın keçdiyi inkişaf yolundan, qarşıya qoyduğu məqsədlərdən asılı olaraq yaranan mütərəqqi və bəşəri dəyərdir. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bərqərar olmuş multikulturalizm mühiti bütün dünyaya nümunədir.

Əminik ki, 2016-cı ildə də ölkəmizdə multikulturalizmin inkişafı sahəsində həyata keçiriləcək işlər bütün dünyada sivilizasiyalararası dialoqun genişlənməsinə xidmət edəcək, regionda və dünyada sülhün, əmin-amanlığın qorunmasına öz dəyərli töhfələrini verəcəkdir.

**Oqtay ƏSƏDOV,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***